Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

“İctimai idarəetmə və sosial innovasiyalar ” kafedrasının dosenti,

c.e.n. Eminov Fərhad Bayram oğlu

eminov-f@rambler.ru

Fənn: Ekoloji monitorinq

Mövzu 15. Ekoloji monitorinq sistemlərinin yaradılmasında beynəlxalq təşkilatların rolu .

1.Ekoloji monitorinq sisteminin yaradılması sahəsində beynəlxalq əməkdaşlığın formalaşması mərhələləri.

2.Beynəlxalq ekoloji monitorinq sisteminin başlıca istiqamətləri və formaları.

3.Beynəlxalq təşkilatların ekoloji monitorinq sahəsində fəaliyyəti və əməkdaşlığı.

4.Ekoloji monitorinq sahəsində beynəlxalq əlaqələr, onların rolu və əhəmiyyəti.

5.Qlobal ekoloji fond və ekoloji monitorinq sahəsində onun rolu.

Mövzunun tədrisi prosesində tələbələr beynəlxalq ekoloji əməkdaşlığın formalaşması mərhələləri, beynəlxalq ekoloji əməkdaşlıq sisteminin başlıca istiqamətləri və formaları, beynəlxalq təşkilatların ekoloji fəaliyyəti və əməkdaşlığı, ətraf mühitin mühafizəsində beynəlxalq konvensiyalar, onların rolu və

əhəmiyyəti, qlobal ekoloji fond və ekoloji problemlərin həllində onun rolu haqqında bilik və bacarıqlara yiyələnəcəklər.

Monitorinq (ingiliscə) hansısa obyektin və ya hadisənin izlənməsidir. Ekoloji monitorinq ekosistemlərin vəziyyətində antropogen dəyişikliklərin təkrar müşahidələrini, qiymətləndirilməsini və proqnozlaşdırılmasını özündə birləşdirən çoxməqsədli iyerarxik sistemdir. “Monitorinq” termini BMT-nin Ətraf Mühit üzrə Stokholm Konfransından əvvəl ortaya çıxdı (Stokholm, 5-16 iyun 1972). Belə bir sistem üçün ilk təkliflər 1971-ci ildə Ətraf Mühitin Mühafizəsi Elmi Komitəsinin xüsusi komissiyasının mütəxəssisləri tərəfindən hazırlanmışdır. İlk hökumətlərarası monitorinq iclası Nayrobidə (Keniya, fevral 1974-cü il) çağırıldı, orada Qlobal Ətraf Mühitin Monitorinqi Sistemi (GEMS) proqramının konturları və məqsədləri açıqlandı. İclasda monitorinqlərin təşkili zamanı onların nəzərə alınması üçün prioritet təşkil edən çirkləndiricilərin siyahısı müəyyən edilib, həmçinin çirklənmənin ölçülməsinin nəticələrinin şərh edilməsi üçün zəruri olan parametrlərə nəzarətin təşkili qərara alınıb. İclasda qlobal monitorinqin təşkilində beynəlxalq əməkdaşlığın mövcud milli və beynəlxalq sistemlər əsasında qurulması tərəfdarı edilib. Qeyd etmək lazımdır ki, təbii mühitdə antropogen dəyişikliklərin monitorinqi sistemi yeni müşahidə stansiyalarının, telekommunikasiya xətlərinin, məlumatların emalı mərkəzlərinin və s. təşkilini tələb edən bir növ yeni sistem deyil. O, təbii mühitin vəziyyətini müşahidə etmək və nəzarət etmək üçün universal sistemin tərkib hissəsidir, bir çox ölkələrdə artıq kifayət qədər inkişaf etmiş bir sistemdir. Hər bir ölkədə inteqrasiya olunmuş monitorinq sistemi mövcud müşahidə sistemlərinə əsaslanır, çox vaxt müəyyən bir ölkədə iqtisadi

idarəetmənin təşkilati strukturunu əks etdirir, lakin müxtəlif ölkələrdə monitorinqin ən mühüm xüsusiyyətləri , monitorinqin vahid konsepsiyası, o cümlədən təbii mühitin vəziyyətinin müşahidəsi, qiymətləndirilməsi və proqnozlaşdırılması, ölçmələrin unifikasiyası, müşahidələr zamanı vahid 7 prioritetin müəyyən edilməsi, təbii mühitin vəziyyətinin qiymətləndirilməsi meyarları eyni olmalıdır

Kompleks monitorinq sistemi hər bir ölkədə mövcud olan müşahidə sistemlərinə əsaslanır. Onlar çox vaxt bu və ya digər dərəcədə müəyyən ölkədə təsərrüfat idarəçiliyinin təşkilati strukturunu əks etdirir. Bununla belə, monitorinqin ən mühüm aspektləri bütün ölkələrdə eyni olmalıdır. Bu zaman monitorinq konsepsiyası vahid konsepsiya kimi çıxış etməli və müşahidələrin aparılmasını, təbii mühitin vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılmasını, eyni ardıcıllıqla ölçmələrin aparılmasını, ümumi göstəricilər əsasında prioritetin müəyyən edilməsini, müşahidələrin aparılması meyarlarını və təbii mühitin vəziyyətinin qiymətləndirilməsi meyarlarını özündə əks etdirməlidir.

Azərbaycan Respublikası ətraf mühitin mühafizəsi, ətraf mühitin təhlükəsizliyi və bioloji müxtəlifliyin qorunması üzrə bir çox beynəlxalq təşkilatların üzvü olmaqla yanaşı, bu sahələrdə bağlanmış beynəlxalq müqavilələrin iştirakçısıdır.

Ölkəmiz ətraf mühitin mühafizəsi və yaxşılaşdırılması proqramlarında iştirak edir, BMT ilə sıx bağlı olan beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, həmçinin ətraf mühitin monitorinqinin dövlətlərarası sistemini dəstəkləyir.

Beynəlxalq ətraf mühitin mühafizəsi obyektləri arasında hava məkanını, kosmosa yaxın ərazilər, Dünya Okeanı, Antarktida və köçəri heyvan növlərini qeyd etmək lazımdır. Biosferdə müşahidə olunan dəyişikliklərin antropogen xarakteri XX əsrin 60-70-ci illərindən qiymətləndirilir.

Qlobal monitorinqin təşkilində beynəlxalq əməkdaşlıq beynəlxalq və milli sistemlərə, xüsusilə Avropa ölkələrinin, o cümlədən keçmiş SSRİ-nin hidrometeoroloji xidmətlərinə əsaslanırdı. Qlobal Ətraf Mühitin Monitorinqi Sistemi UNEP (Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı) çərçivəsində birgə səylər nəticəsində yaradılmışdır.

Qlobal monitorinq biosferdə baş verən qlobal proseslərin və hadisələrin müşahidələri şəbəkəsinin yaradılmasını, habelə yaranan ekstremal vəziyyətlər barədə xəbərdarlıqları nəzərdə tutur.

Qlobal monitorinq sistemində ətraf mühitin çirklənməsi səviyyəsinin və onun təsir amillərinin monitorinqi prioritet istiqamət kimi qəbul edilib. Həmçinin 1974-cü ildə 1974-1978-ci illər üçün qlobal monitorinqin həyata keçirilməsi planı nəşr olundu.

Qlobal ekoloji problemlər miqyasında olan və dövrümüzdə təsdiqlənmiş monitorinq fəaliyyətinin digər sahələri Yerin ozon qatının mühafizəsi, iqlim dəyişikliyinin öyrənilməsi, təbii ehtiyatlardan istifadənin tənzimlənməsi, biomüxtəlifliyin qorunması və digər mühüm məsələlər ilə bağlıdır.

Qlobal problemlərin əsas xüsusiyyəti ondadır ki, təklikdə heç bir ölkə onun öhdəsindən müstəqil-sərbəst gələ bilmir - problemlərin həlli yalnız dövlətlərin, dünya birliklərinin birgə səylərinin birləşmələrinin nəticəsində mümkün ola bilər.

Planetin ekosistemlərinin dağılmasının qarşısının alınmasında ümumbəşəri səylərin vacibliyini hələ XX əsrin başlanğıcında V.İ.Vernadski özünün noosfer konsepsiyasının kontekstində göstərmişdir. Orada qeyd olunur ki, dünya ölkələri bu məsələlərin həllində daha məsuliyyətli olmaqla yanaşı beynəlxalq əməkdaşlığa söykənməlidirlər. Bu əsasdan da dünyanın bu və ya digər ölkəsi öz nümayəndələrini beynəlxalq təşkilatlara sərbəst göndərə bilirlər. Bu, eyni zamanda ölkələr arasında beynəlxalq siyasi münasibətlərin – siyasi ab-havanın da yaxşılaşmasına təkan vermiş olur.

Ətraf mühitin mühafizəsi sahəsindəki beynəlxalq əməkdaşlığın özünə yer tapması get-gedə öz müsbət nəticələrini verməkdədir. Müasir ekoloji əməkdaşlığın həyata keçirilməsinin mərəhələlərini aşağıdakı kimi ayırırlar:

1913-1948-ci illər

1948-1968-ci illər

1968-1992-ci illər

1992-ci il -müasir dövr

Birinci mərhələdə təbiəti mühafizə üçün dövlətlərin ilk səyləri özünü beynəlxalq konfransların çərçivəsində - səviyyəsində göstərmişdir. Bu sahədə birinci konfrans 180 ölkənin alimlərinin bir yerə toplanması ilə İsveçrənin Bern şəhərində 1913-cü ildə keçirilmişdir. Təbiətin mühafizəsinə həsr olunmuş I Beynəlxalq

konqres isə 1923-cü ildə Fransanın Paris şəhərində baş tutmuşdur. 1928-ci ildə Brüsseldə təbiəti mühafizənin Beynəlxalq bürosu açılmışdır. Lakin bunlara baxmayaraq bu mərhələdə ətraf mühitin mühafizəsinin beynəlxalq xarakteri ayrı-ayrı hökumətlər tərəfindən dəstəklənməyərək onlar yalnız informasiya, elecə də müzakirə mövzusu kimi qəbul olunmuşdur.

İkinci mərhələnin başlanması Birləşmiş Millətlər Təşkilatının yaranması ilə eyni vaxta düşür, hansı ki, müasir dövrdə ətraf mühitin mühafizəsində və beynəlxalq ekoloji əməkdaşlığın yerinə yetirilməsində onun üzərinə çox mühüm vəzifələr düşmüşdür. Bir sözlə, bu sahədə BMT-nin rolu ölçüyəgəlməzdir.

Birinci Beynəlxalq təbiəti mühafizə təşkilatı (Beynəlxalq təbiəti mühafizə ittifaqı) YUNESKO-nun dəstəyi ilə Brüssel bürosu əsasında 1948-ci ildə yaradılmışdır. 1950-ci ildə ətraf mühitin mühafizəsinə konseptual yanaşma baxımından dəyişikliklər edilmişdir. Daha doğrusu mövcud təbiətin qorunma konsepsiyası əvəzinə, təbiətin qorunmasında təbii sərvətlərdən səmərəli, kompleks istifadə etmək konsepsiyası özünə yer tapmışdır. Bununla əlaqədar 1956-cı ildə təbiəti mühafizənin Beynəlxalq ittifaqı dəyişdirilərək təbiətin və təbii sərvətlərin mühafizəsinin Beynəlxlaq ittifaqı yaradılmışdır.

Üçüncü mərhələ Beynəlxalq ekoloji əməkdaşlığın daha da böyük vüsət alması ilə səciyyələnir ki, burada da elmi-texniki inqilabın neqativ törəmələri özünü büruzə verir. 1960-cı illərdə ətraf mühitə antropogen təsirlər qlobal xarakter almağa başlamışdır. 1968-ci ildə BMT-nin Təhlükəsizlik Şurası əlverişli təbii şəraitdən insanların istifadə etmə hüququ haqda qətnamə qəbul etmişdir. 1972-ci ildə Stokholmda BMT-nin ətraf mühit üzrə

kofransında daima faəliyyət göstərən təşkilatı yaradılmışdır. Bu daimi fəaliyyət göstərən təşkilat ətraf mühit üzrə BMT Proqramı adlanır (YUNEP). Stokholm konfransı şərait yaratdı ki, ekoloji problemlərə insan inkişafı konteksində yanaşılsın. Müxtəlif sosial-iqtisadi və sair problemlərə həsr olunmuş konfranslar BMT-nin təşəbbüsü ilə keçirilmişdir. Bunlardan əhali məskunlaşmasına dair 1974-cü il Buxarest konfransını, Ümumdünya ərzaq problemlərinə həsr olunmuş 1974-cü il Roma konfransını, əhali yaşayış məntəqələri üzrə keçirilən 1976-cı il Kanadada Vankuver konfransını, yeni və bərpa olunan enerji mənbələrinə həsr olunmuş 1981-ci il Nayrobi (Keniyada) konfransını qeyd etmək mümkündür. Bu və ya digər konfranslarda insanların yaşadıqları mühitin qorunması məsələlərinin həlli yolları da öz əksini tapmışdır.

Dördüncü mərhələnin başlanması əlamətdar hadisə - BMT-nin ətraf mühit və inkişafa həsr olunmuş məşhur 1992-ci il Rio-de-Janeyro Konfrans dövrünə təsadüf edir. Konfrans Stokholm konfrasından sonrakı son 20 il ərzində ətraf mühitin beynəlxalq mühafizəsi işlərinə yekun vuraraq bir sıra qiymətli sənədlər qəbul etmiş, davamlı əhali artımı haqqında konsepsiya irəli sürmüş, iqlim resursları və bioloji müxtəlifliyin qorunması konsepsiyasını və sairəni vermişdir. Bununla yanaşı konfrans təbiəti mühafizə sahəsində gələcək beynəlxalq əməkdaşlığa dair proqramın işlənib hazırlanmasını nəzərdə tutmuş, habelə “XXI əsrin gündəliyi” ilə yanaşı bir sıra digər sənədləri qəbul etmişdir.

Müasir beynəlxalq ekoloji əməkdaşlıq sistemi özündə aşa-ğıdakı istiqamətləri birləşdirir:

1) ekologiya sahəsində parlament səviyyəsində model qanunların qəbul edilməsi;

2) BMT rəhbərliyi ilə dövlətlərin icraedici strukturları arasında ekoloji proqramların koordinasiyasını və reallaşmasını təmin etmək;

3) təbiəti mühafizə sahəsində müqavilələr və başqa beynəlxalq əməkdaşlıq sənədlərinin konvension tənzimlənməsi;

4) elmi-texniki əməkdaşlığı genişləndirmək, təbiəti mühafizə layihələrinin birgə tətbiqini aparmaq, elmi nəticələrin kompleks istifadəsi, ekspertizanın birgə həyata keçirilməsi və s. -ni təşkil etmək;

5) ictimai təşkilatların, iş adamlarının, beynəlxalq ekoloji forumların ekoloji əməkdaşlığını təşkil etmək və s.

Ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa təsir göstərən ən çox yayılmış formalardan biri *Beynəlxalq müqavilələrin* bağlanması və digər razılaşmaların qəbulu sayılır. Belə sənədlərin qəbul edilməsində ilk əvvəl qonşu ölkələr, eləcə də həmin ətraf mühitin və təbii sərvətlərin mühafizəsinə ehtiyacları olan dövlətlər iştirak edirlər. Təbiətdən istifadənin Beynəlxalq hüququ praktikasının əsrdən artıq tarixi vardır. Onun əsası heyvanat aləminin istifadəsinin tənzimlənməsi və mühafizəsi üzrə bağlanan müqavilənin tarixi ilə uyğun gəlir. 1875-ci ildə Avstriya - Macarıstan və İtaliya quşların qorunması haqda deklarasiya qəbul etmişlər, 1882-ci ildə Şimal dənizində balıq ovlanmasında qayda-qanunun tənzimlənməsinə dair konvensiya qəbul olunmuşdur. Elə həmin ildə Parisdə bir neçə Avropa ölkəsi ilə kənd təsərrüfatı üçün yararlı sayılan quşların mühafizəsi üzrə birinci *beynəlxalq konvensiya* imzalanmışdır. 1897-ci ildə isə Rusiya, Yaponiya, ABŞ Sakit okeanda dəniz pişiklərinin birgə ovlanması və mühafizəsi üzrə müqavilə öz əksini tapmış oldu. Balıq ovlanması, balinaların

tutulması, habelə digər dəniz heyvanlarının əldə edilməsi beynəlxalq müqavilələrin ənənəvi sferaları sayılır. Hal-hazırda bu sahədə 70-dən çox beynəlxalq müqavilə imzalanaraq öz qüvvəsini saxlayır. 1954-cü ildə 20 dövlət Londonda Dünya okeanının neftlə çirkləndirilməsinin qarşısını almaq məqsədilə Konvensiya bağlanmışdır. Müqaviləyə görə sahildən 80-250 km məsafədə neft və neft məhsullarının ətrafa atılması qadağan edilmişdir. Bu sahədə, sonralar, yəni 1972-ci, 1973-cü ildə hər cür tullantının Dünya okeanına atılması, eləcə də radioaktiv maddələrin orada basdırılması qadağan olunmuşdur.

Dövlətlərarası bağlanan müqavilələr içərisində ən təsirlisi Nüvə silahının atmosferdə, kosmik fəzada, sualtında sınaqdan keçirilməsinə aid olan müqavilədir. Bu 1963-cü ildə Moskvada 100 dövlətin işitirakı ilə baş tutmuşdur. Ətraf mühitin hərbi yolla çirkləndirilməsinin qarşısının alınmasında 1977-ci ildə bağlanan Konvensiyasını da göstərmək mütləqdir.

Müasir konvension tənzimləmə ona yönəlmişdir ki, ətraf mühitin ekoloji sistemini poza biləcək təhlükəli vasitələrdən yan keçilsin. Bu məqsədlər üçün müxtəlif Beynəlxalq birliklər bir sıra sənədlər imzalamışlar. Bunlardan atmosferin transsərhəd zonalarında böyük məsafələrdə baş verən çirklənmələrin qarşısının alınmasına dair 1979-cu il Konvensiyasını, ozon qatının qorunmasına dair 1985-ci il Vyana konvensiyasını, nüvə müharibəsi və radiasiya təhlükəsinə qarşı keçirilən 1986-cı il Konvensiyasını, ekoloji vəziyyətin pozulmasına təsir edən qorxulu yüklərin daşımasına qarşı olan Konvensiyanı və bir çox başqalarını göstərmək olar. Beynəlxalq nailiyyət kimi böyük əhəmiyyət kəsb edən və ozon qatının pozulması məsələlərinin qarşısını almaq məqsədi daşıyan 1987-ci il Monreal protokolu da mövcuddur.

Monreal protokolunu imzalayan tərəflər atmosferə atılan xlorftorkarbon birləşmələrini 2000-ci ilin axırı üçün 50% azaltmaq haqda razılığa gəlmişlər. Həmin tullantı qatışıqları canlı aləmi təhlükədən qoruyan, ona yaşamaq üçün həyat verən ozon qatının pozulmasına səbəb olur.

Ümumbəşəri maraqlar planetin bioloji və landşaft örtüyünün qorunmasına yönəlmişdir. Bu məqsədlər üçün beynəlxalq birliklər bir sıra öhdəliklər götürmüşdür, konfranslar keçirmişdir. Məsələn, su quşlarının yaşaması üçün çox gərəkli sayılan, beynəlxalq əhəmiyyət kəsb edən su-bataqlıq sahələrinin mühafizəsini nəzərdə tutan 1971-ci il Konvensiyasını, dünya mədəniyyət və təbiət abidələrinin qorunmasına həsr edilən 1972-ci il Konvensiyasını, vəhşi heyvanların miqrasiyasının mühafizəsinə dair 1979-cu il Konvensiyasını və digərlərini də qeyd etmək çox vacibdir. Deyilənlərlə yanaşı Beynəlxalq ekoloji əməkdaşlıqda əldə edilən nailiyyətləri əks etdirən, eləcə də bioloji müxtəlifliyi qoruyub saxlamaqda məsələlər həll edilən 1992-ci il Konvensiyasının da özünəməxsusluğu vardır. Konvensiyada ayrı-ayrılıqda hər bir region üçün bioloji müxtəlifliyin və zənginliyin nə qədər əhəmiyyətli olması fikri də öz əksini tapmışdır. Bunlardan əlavə, kovensiyaya uyğun olaraq böyük və zəngin genefonda malik olan ölkələr bu qiymətli sərvətə baxmağa gələnlərdən gəlir də əldə etmə hüququna malikdirlər.

Qəbul edilmiş beynəlxalq razılaşmalar, müqavilələr və sair tədbirlər konkret pozitiv nəticələrini verməkdədir. Belə ki, atmosferin böyük məsafədə transsərhəd çirklənməsinin qarşısının alınması Avropada bu çirklənmənin səviyyəsinin azalmasına səbəb olmuşdur. Eləcə də 1990-cı ildə vəhşi fauna və flora növlərinin azalmasının qarşısının alınmasında görülən tədbirlərə dair Afrika

Kovensiyasından sonra materikdə fillərin sayı xeyli çoxalmışdır. 1991-ci il razılaşmasına görə Antarktidada 50 il müddətinə faydalı qazıntıların geoloji axtarışı və istehsalı qadağan edilmişdir.

Beləliklə, ümumilikdə dünya dövlətləri 178-dən çox ekoloji müqavilə imzalamışlar. Beynləxlaq ekoloji əməkdaşlığın digər effektiv formaları BMT yanında yaradılmış və fəaliyyət göstərən hökumətlərarası ixtisaslaşmış təşkilatların olmasıdır.

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1992-ci il "İqtisadi inkişaf və təbiəti mühafizə" qətnaməsi BMT və onun ayrı-ayrı ixtisaslaşdırılmış təşkilatlarının ətraf mühitin mühafizəsi sahəsində bir çox məsələlərinə aydınlıq gətirmişdir. Ətraf mühitin mühafizəsinin müasir anlamı isə öz əksini BMT-nin biosfer probleminə dair 1968-ci il Paris konfransında tapmışdır. Konfransın qərarlarının yerinə yetirilməsi zəmanənin ən tutarlı ekoloji tədqiqatlarının elmi proqramı isə YUNESKO-nun "İnsan və biosfer" proqramına daxil edilmişdir.

Hökumətlərarası "İnsan və biosfer" proqramının əsas məqsədi ondan ibarətdir ki, ayrı-ayrı ekosistem tipləri üzrə biosferin təbii sərvətlərindən səmərəli istifadə və onların qorunub saxlanması üçün elmi əsaslar işlənib hazırlanması nəticədə bu proqram çərçivəsində beynəlxalq birliklərin alimləri tərəfindən biosferin təbii sərvətlərindən səmərəli istifadə və onların mühafizəsinin elmi əsasları işlənib hazırlanmışdır. Nəticədə bir çox dövlətlərin hökumətləri anladılar ki, sonrakı mərhələlərdə təbii sərvətlərdən səmərəsiz, kortəbii istifadə, onların qorunması kimi hallar baş verərsə, nəinki milli və regional baxımdan, habelə qlobal səviyyədə problemlər yaranacaqdır. Bu, BMT-nin 1972-ci ildə ətraf mühit haqqında Stokholm konfransının çağırılması üçün

həyəcan təbili çalmış oldu. Göstərilən tarixi konfrans sayılmaqla demək olar ki, burada bütün dünya dövlətləri iştirak etmişlər. Konfransın yekun sənədləri beynəlxalq birliklərə, dövlətlərə razılaşmalar əsasında imkan verdi ki, ətraf mühitin qorunmasının köklü məsələlərində birgə iştirak etsinlər, BMT mexanizmindən istifadə etməklə planetin hər hansı yerində ekoloji problemlərin həll olunmasında öz töhfələrini vermiş olsunlar. Eyni zamanda konfransın qərarları ətraf mühitin mühafizəsi aspektindən beynəlxalq hüquq normalarının formalaşmasına şərait yaratmış oldu. Stokholm konfransının qərarları ilə BMT-nin xüsusi orqanı – təşkilati qurumu *Ətraf mühitə dair BMT Proqramı* da yaradılmışdır (YUNEP). Həmin orqan qlobal ekoloji böhranın daha kəskin məsələlərinin həlli ilə (iqlim dəyişməsi, torpaqların sıradan çıxması, torpaqların deqradasiyası, meşələrin qırılması, şirin su ehtiyatının azalması, okeanların çirkləndirilməsi, bioloji müxtəlifliyin azalması və s.) məşğuldur.

YUNEP-in birinci fəaliyyəti biosferin vəziyyəti və dəyişməsinə dair dünya monitorinq sisteminin yaradılması olmuşdur. O aşağıdakı yarımsistemlərdən ibarət olacaqdır: qlobal informasiya şəbəkəsi – İNFOTERRA; qlobal çirklənməni ölçən mühit monitorinqi – QSMOS; kimyəvi çirklənməni müəyyən edən beynəlxalq registr – MRПTXV. İNFOTERRA - Yer haqqında informasiya hələlik tək olmaqla qlobal müşahidə sisteminin bir hissəsi sayılır.

Ətraf mühit haqqında və inkişafa dair BMT-nin ikinci Konfransı 1992-ci ildə Rio-de-Janeyroda baş tutmuşdur. Konfrans dünyanın 178 ölkəsinin dövlət və hükumət başçılarının iştirakı ilə keçirilmişdir. Konfrans bir növ BMT-nin Baş Assambleyasının 1989-cu il qətnaməsinə cavab kimi səslənmişdir. Qəbul olunmuş

qətnamədə isə Konfrans təşkilatları davamlı, sivil ekoloji mühitin yaradılmasına çağırmışdır. BMT-nin 1992-ci il Konfransının qəbul olunmuş sənədləri Stokholm sənədlərindən fərqli olaraq qanunvericilik xarakteri daşımışdır. Onların uyğun cəhətləri isə Konfransda iştirak edən hər bir dövlətin öz milli qanunauyğunluqlarını dünya birliklərinin qəbul etdikləri stabil inkişaf konsepsiyasına uyğunlaşdırmalarıdır.

Əgər, BMT-nin 1972-ci il birinci Konfransı biosfer və insanlar arasında qarşılıqlı əlaqələrin əsasını qoymuşdursa, 1992-ci il Konfransı görülən işlərə birinci olaraq yekun vurmuş və bir neçə əhəmiyyətli sənədlər qəbul etmişdir. Deyilənlər içərisində "Ətraf mühit və inkişaf Rio qətnaməsi", "Bütün meşə növlərinin inkişafı, saxlanılması, davamlı inkişafı və idarə edilməsinə dair qlobal konsensus bəyanatı", "Bioloji müxtəliflik haqqında Konvensiya", "XXI əsr gündəliyi"ni və sair sənədlər gələcək üçün xüsusi əhəmiyyət kəsb edirlər. Rio-de-Janeyro konfransında, həmçinin beynəlxalq məhkəmə haqqında, beynəlxalq ekoloji tribunal haqqında, "yaşıl sahillər" formalaşdırılması və sair digər məsələlər qoyulmuşdur. Konfranslarda qoyulmuş məsələlərin həlli onu göstərir ki, müasir dövrdə təbiətdən istifadənin əsas xüsusiyətlərindən biri milli və millətlərarası maraqlarda səviyyəli, qarşılıqlı münasibətlərin mövcudluğudur. Eləcə də ümumbəşəri qiymətlərin iqtisadi məqsədlərdən üstün sayılmasıdır.

Sektorlar prinsipi üzrə yaradılmış BMT-nin ixtisaslaşmış təşkilatları öz fəaliyyətlərində də təbiəti mühafizə məsələləri ilə məşğul olurlar. BMT-nin belə ixtisaslaşmış sahələrinə təhsil, elm və mədəniyyət təşkilatı (YUNESKO), BMT inkişaf Proqramı, BMT-nin Avropa İqtisadi Komissiyası (AİK), Ümumdünya Tibb Təşkilatı (ÜDTT), BMT-nin ərzaq və kənd təsərrüfatı məsələləri

komissiyası (FAO), Ümumdünya meteoroloji təşkilatı, Atom enerjisi üzrə beynəlxalq agentlik (MAQATE) və başqaları aiddir.

Qlobal ekoloji problemlərin həlli ilə beynəlxalq ictimai partiyaların, təşkilatların, qrupların, "yaşıllar" hərəkatının, yaxud ekoloqların fəaliyyətləri də əlaqədardır. Bunlar içərisində ən tanınmışı "Qrinpis" – "Yaşıl dünya" hesab edilir ki, o da biosferin radioaktiv çirklənməsinə qarşı mübarizə aparır.

Əsas beynəlxlaq qeyri-hökumət təşkilatlarından və dünya təbiəti mühafizə hərəkatının əsasını qoyan təbiətin və təbii sərvətlərin qorunması Beynəlxalq ittifaqın adını da çəkmək gərəklidir (MSOP). Bu qeyri-hökumət təşkilatı 1948-ci ildə YUNESKO-nun himayədarlığı ilə yaradılmışdır. Onun əvvəlki adı – Təbiəti Mühafizə Beynəlxalq İttifaqı kimi adlanırmış. MSOP-un köməkliyi ilə "Qırmızı kitab" yaradılmışdır. Qırmızı kitaba nadir və nəsli kəsilməkdə olan məməlilər, quşlar, amfibilər, daxil edilmişdir. Yaşıl kitabda isə Yer kürəsində nəhəng, unikal, nadir landşaftlar öz əkslərini tapmışlar.

Müasir dünyada təbiəti mühafizəyə aid 300-dən çox təşkilat fəaliyyət göstərir. Onlar içərisində hələ 1922-ci ildə yaradılmış Quşların mühafizəsi üzrə fəaliyyət göstərən Beynəlxalq Şura, heyvanların qorunması üzrə Ümumdünya Federasiyası, alp rayonlarının mühafizəsi üzrə Beynəlxalq Federasiya, suların qorunması üzrə Avropa Federasiyası və s. vardır. Ətraf mühitin mühafizəsi və təbii sərvətlərin qorunmasında ən gənc ictimai təşkilat "yaşamaq uğrunda və cəmiyyətin inkişafı" Beynəlxalq Fondunun adını çəkmək olar. O, 1988-ci ildə Moskvada yaradılmışdır. Gənc təşkilatlardan digəri 1990-cı ildən fəaliyyət

göstərən Moskva Beynəlxalq Energetika Klubunun da adını bildirmək lazımdır.

İstər təbiəti mühafizə sahəsində, istərsə təbii sərvətlərin qorunmasında, eləcə də təbii ekoloji tarazlığın qorunub saxlanılmasında beynəlxalq maliyyə təşkilatlarının da rolu və əhəmiyyəti ölçüyə gəlməzdir. Burada əsas yeri Beynəlxalq yenidənqurma və inkişaf bankının (MBRR) adını çəkmək olar. Əlbəttə Avropa Yenidənqurma və İnkişaf Bankı da əhəmiyyətinə görə heç də geri qalmır.

Özünün fəaliyətində ətraf mühitin mühafizəsini və təbii sərvətlərdən səmərəli istifadəni əsas vəzifə hesab edən təşkilatlarından biri də Ümumdünya Bankıdır. Avropa Yenidənqurma və İnkişaf Bankı dünyada birinci beynəlxalq təşkilat sayılır ki, özünün əmək fəaliyyəti dairəsinə aşağıda göstərilənləri daxil etmişdir:

- ekoloji siyasəti qəbul edən dövlətlərə yardım etmək, təşkilatı məsələlərdə, normativ sənədlərin hazırlanmasında, kadr hazırlığında, standartlara əməl edilməsində yardımçı olmaq;

- milli ekoloji proqramların hazırlanmasına, bu sahədə idarəçilikdə bazar münasibətlərinin tətbiqində yardımçı olmaq;

- bazar münasibəti ölkələrində ekoloji məhsul və xidmətlərin daha da genişləndirilməsi, ətraf mühitin təbii saflığının saxlanılması, layihələrə investisiya qoymaq;

- əhalinin, sahibkarların, bankirlərin bu sahədə savadların artırılmasına dair proqramların, xüsusi tədqiqatların təşkilini və həyata keçirilməsini həyata keçirmək;

•ekoloji qiymətləndirməyə, planlaşdırmaya, idarəçiliyə, əməliyyatların auditinə, monitorinqinə, ekoloji proseduraların həyata keçirilməsinə, bank layihələrinə yardımçı olmaq.

Qlobal Ekoloji Fond (GEF) və onun əsas vəzifələr

Qlobal Ekoloji Fond (GEF) Bioloji Müxtəliflik Konvensiyasında və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasında fəal iştirak etmək üçün inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi verir. Qlobal Ekoloji Fondun İcraçı Agentlikləri Dünya Bankı, Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP), Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramıdır (UNDP). Global Ekoloji Fondun işinin mühüm komponenti iştirakçı ölkələrə Bioloji Müxtəliflik haqqında Konvensiya və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzrə öhdəliklərini yerinə yetirməkdə kömək etməkdir. GEF layihələrinin məqsədləri, xüsusən də Biomüxtəliflik və İqlim Dəyişikliyi Konvensiyaları üçün prioritetlər və siyasətlər sahəsində, GEF-in hər bir tematik sahələrində mövcud proqramlara uyğundur.

Qlobal Ekoloji Fondun GEF layihəni ekoloji cəhətdən cəlbedici etmək üçün əlavə xərclərin maliyyələşdirilməsi üçün vəsait ayırır.

GEF Bioloji Müxtəliflik Konvensiyasında və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasında fəal iştirak etmək üçün inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi verir. GEF-in İcraçı Agentlikləri Dünya Bankı, Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP), Birləşmiş Millətlər

Təşkilatının İnkişaf Proqramıdır (UNDP). Qlobal Ekoloji Fondun işinin mühüm komponenti iştirakçı ölkələrə Bioloji Müxtəliflik haqqında Konvensiya və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzrə öhdəliklərini yerinə yetirməkdə kömək etməkdir. GEF layihələrinin məqsədləri, xüsusən də Biomüxtəliflik və İqlim Dəyişikliyi Konvensiyaları üçün prioritetlər və siyasətlər sahəsində, GEF-in hər bir tematik sahələrində mövcud proqramlara uyğundur.

Qlobal Ekoloji Fond beynəlxalq və qeyri-hökumət təşkilatları, eləcə də özəl sektorla tərəfdaşlıqda qlobal ekoloji problemləri həll etmək üçün 182 ölkənin hökumətlərini birləşdirir. Fond ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş layihələrin ən böyük maliyyə mənbəyidir. Müstəqil maliyyə institutu kimi Global Ekoloji Fond inkişaf etməkdə olan ölkələrə və keçid iqtisadiyyatı olan ölkələrə biomüxtəliflik, iqlim dəyişikliyi, beynəlxalq sular, torpağın deqradasiyası, ozon təbəqəsi və davamlı üzvi çirkləndiricilərlə bağlı layihələr üçün qrantlar verir. Bu layihələr yerli, milli və qlobal ekoloji problemləri əlaqələndirməklə və davamlı inkişafa töhfə verməklə ətraf mühitin mühafizəsini təşviq edir.

Qlobal Ekoloji Fond (GEF) qlobal ekoloji problemlərin həllinə yönəlmiş layihələrin həyata keçirilməsi üçün ölkələrə qrant və güzəştli kreditlərin verilməsi üçün maliyyə mexanizmidir. Qlobal Ekoloji Fond (GEF) 1991-ci ildə Dünya Bankının pilot proqramı kimi yaradılmışdır.

Ekoloji fondların əsas vəzifələri aşağıdakılardır.

-Ətraf mühitin keyfiyyətinin yaxşılaşmasına yönəlmiş elmi-texniki layihələr və proqramların maliyyələşməsi və kreditlərin ayrılması.

-Əhalinin ekoloji təhlükəsizliyini təmin etmək üçün proqram və layihələrin maliyyələşdirilməsi.

-Təbiəti mühafizə tədbir və proqramlarıma yönəldilən maliyyə resurslarının mobilizasiyası.

-Təbiətdən səmərəli istifadənin və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqinin iqtisadi stimullaşdırılması.

-Ekoloji tərbiyə və təhsil.

Mövzuya aid suallar:

1. Beynəlxalq ekoloji əməkdaşlığın formalaşması mərhələləri hansılardır? 2.Beynəlxalq ekoloji əməkdaşlıq sisteminin başlıca istiqamətləri və formaları nədən ibarətdir?

3.Beynəlxalq təşkilatların ekoloji fəaliyyəti və əməkdaşlıq istiqamətləri hansılardır?

4.Ətraf mühitin mühafizəsində beynəlxalq konvensiyalar, onların rolu və əhəmiyyəti nədən ibarətdir?

5.Qlobal ekoloji fond və ekoloji problemlərin həllində onun rolu nədən ibarətdir?

Ədəbiyyat:

Əsas dərslik

1.Şimova O.S., Sokolovski N.R. Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı-2013

2. Quliyev T.S. Təbiətdən istifadənin və ətraf mühitin mühafizəsinin iqtisadiyyatı. Bakı-2008.

3.İbrahimov İ.H. Ətraf mühitin iqtisadiyyatı. Bakı, 2015, 357 səh.

Əlavə mənbələr

1.Atakişiyev M.C. Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı – 2004.

2. Bayramov K.B.Təbiətdən istifadənin iqtisadi və ekoloji problemləri. Bakı-2012.

3. Bayramov A.A. Ətraf mühitin, təbii ehtiyatların öyrənilməsində aerokosmik üsullar. Bakı-2008.

4. Qurbanzadə A.A. Ekologiya: sosial və iqtisadi əsasları.Bakı - 2010.

5. Sadıqov A.S., Xəlilov İ.B. Ekologiya və ətraf müitin mühafizəsi. Bakı-2009.

6. Mahmudov N.İ. Azərbaycanın mineral-xammal sərvətləri və ətraf mühit . Bakı-2000.

7. Məmmədov Q.Ş. Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları. Bakı-2007.

8. Nəbiyev N. İqtisadiyyat, cəmiyyət və ekoloji mühit. Bakı-2000.

9. Göyçaylı Ş.Y. və b. Ətraf mühiti mühafizə və təbii sərvətlərdən səmərəli istifadə. Bakı-1996.

10. Hüseynov T.B., Məmmədov R.H., Mehdiyeva V.Z. Təbii resurslar və davamlı inkişaf. Bakı-2008.

11.Məmmədov Z.S. Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı-2010.

12.Dolxanov A.B.Təbiətdən istifadənin hüquqi əsasları.Bakı-2008.

13.Xəlilov Ş.B. Azərbaycanın ekocoğrafi problemləri.Bakı-2006.

14. Рябчиков А.К. Экономика прирдополъзования. Москва - 2002.

15.Нечепоренко О.Л. Экологическое регулирование в экономике. СПБ. 1992.

16. Эндрес А., Квернер И. Экономика природных ресурсов . СПБ. 2004.

17. Пахомова Н.В., Рихтер К.К. Экономика природополъзования и охранаы окружающей среды. СПБ. 2001.